RUHUMUZUN SƏRHƏDSİZ DUYĞULARI

Şəddat CƏFƏROV,
iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru,
Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü,
Beynəlxalq Yazarlar Birliyinin üzvü

Sabir Rüstəmxanlı haqqında düşüncələrimi yazıya gətirməzdən əvvəl bir neçə kəlmə cəmiyyətin indiki durumu haqqında danışmaq istərdim.

Prezidentin sərəncamı ilə Milli Məclisə növbədənkənar seçkilər keçirildi. Hər birimiz seçici olduğumuz üçün istər-istəməz müvafiq məntəqələrdəki görüntüləri gözümüzün önünə gətirə bilirik.

İnsanlar öz hüquqlarından istifadə edir. Mənəvi mühitlərini qəbul etdikləri, cəmiyyətə, vətənə, insalara daha çox faydalı hesab etdikləri namizədlərə səs verdilər. Heç kimin əlindən tutub sən filankəsə səs ver, yaxud səs vermə söhbəti zənnimcə, olmadı. Çünki ara-sıra bəzi xırda narazılaqların da arasından bu tipli şikayətlər eşidilmədi. İndi necə olur ki, kimlərsə hələ seçki başlamamış bu mühüm siyasi hadisəni qaralamağa çalışırdı. Zənnimcə, bu münasibətdə bir qədər qərəzkarlıq var. Müəyyən siyasi iddialar, cəmiyyətin mənafeyinin əksinə olaraq şəxsi mənafe hissləri sanki insanların həqiqəti görən gözlərinin önünə tor çəkir. Bütün bunlar bir tərəfə.

Axı qanunçuluqdan baş çıxarmayan, mənəvi əxlaqi normaları ilə millət vəkilliyinə layiq olmayan adamları da milli məclisdə görmək istəyində olanların da sayı az deyil. Üstəlik, layiqli insanları müdafiə edən, onların xalq arasında təbliğatını aparan ziyalıları qaralamaq cəhdləri də çoxdur.

Əvvəllər də yazdığım kimi S.Rüstəmxanlının ziyalılıq mövqeyini, şairlik istedadını, görkəmli ictimai-siyasi xadim olduğunu onun həyati faktlarından görüb bilmişəm və S.Rüstəmxanlıya mən həmişə inanmışam.

Zaman keçir, vaxt ötür, S.Rüstəmxanlının hələ bir sənətkar kimi öz xalqına deyəcəyi sözü bitməyib, tükənməyib. İndi onun müvafiq vaxta, zamana daha çox ehtiyacı var. Ən azı onun son illərdə qələmə aldığı möhtəşəm tarixi romanlarını, çox dəyərli publisistikasını, poetik əsərlərini, poemalarını (burada "Qarabağa dönüş" poemasını yada salmamaq mümkün deyil) zəngin tarixi dərsliklər kimi qarşılayan yeni nəslin müəllif haqqında nə düşündüyünü şərh etməyə lüzum qalmır.

S.Rüstəmxanlı xalqın ürəyində özünə əbədi yer tutub. Mən onun bütün siyasi hadisələrdə yalnız həqiqətə tapındığının şahidi olmuşam. Onun nitqləri bir vaxt meydanda bir milyon insanın varlığında işığa çevrilmişdi. İndi sosial şəbəkələrdə S.Rüstəmxanlının ünvanına böhtanlar, ibarəsi dilə gəlməyən ifadələr işlədirlər. Bu, xalqın öz ziyalısına real münasibətinin nəticəsi deyil. Bu, araqarışdıranların, mənafe güdənlərin istəklərinin bəhrəsidir. Əlbəttə, S.Rüstəmxanlı onun qarşısına sual kimi qoyulan hər hansı bir məsələyə hər vaxt cavab verməyə hazırdır. Ən azı, bu insanın təbiət etibarı ilə xalqın mənafeyinin keşiyində durduğuna sübut üçün onun Milli Məclisdəki çıxışlarını da yada sala bilərik. Demək olar ki, bütün çıxışlarında tərəfində durur, cəmiyyətin problemlərini göz önünə gətirir. Bu problemlərin həllinə cavabdeh olan şəxslərdən müntəzəm və ardıcıl cavab tələb edir. İndi iş elə gətirir ki, S.Rüstəmxanlı yaş, enerji baxımından, xüsusilə mənəvi hazırlığına görə Tənzilə xanımın mövqeyini müdfiə edir. Çünki o, Tənzilə xanımı təkcə həyat yoldaşı kimi yox, həm də silahdaşı kimi görür. Tənzilə Rüstəmxanlı türk-Turan dünyasının mənəvi əlaqələrinin kök atmasında əvəzsiz xidmətlər göstərir və bunu da S.Rüstəmxanlı seçki qabağı çıxışlarında, mülahizələrində xalqa çatdırmağı özünə borc bilir.

S.Rüstəmxanlının mənəvi mühitində vətənin sərhədləri ləyaqətli insanların varlığından keçir. Türk dünyasının tarixini ehtiva edir və ən başlıcası, bu gün türk-Turan mənəvi birliyinin sərhədlərini də öz varlığına çəkir.

Görkəmli sənətkarın "Vətəndaşlığın əlifbası" adlı kitabını səhifə-səhifə çevirirəm. Müəllifin türk-Turan mənəvi mühiti ilə səsləşən duyğulanmalarına xüsusi diqqət yetirirəm. Bu adam, yəni görkəmli Azərbaycan şairi S.Rüstəmxanlı Azərbaycan türklərinin yaşadığı tarixi məkanı bu gün ruh etibarı ilə bütöv sərhədlərimiz kimi görür. Bu məkanın möhtəşəm xəritəsini özünün poetik duyğulanmaları ilə bütün varlığı ilə tərənnüm edir. Onun "Ruhumuz sərhədsiz olduğu üçün" adlı şeirini indiki zaman üçün çox dəyərli bir ədəbi örnək hesab edirəm və buna görə də oxuculara çatdırmağı özümə borc bilirəm:

Bu vətən deyilən dünyam sirlidi,
Bir paytaxtı sevinc, bir paytaxtı qəm.
Bu Vətən torpağı çox qəribədi,
Hələ sərhədini tapa bilmirəm!
Arzu da beləcə sərhədsiz olur,
Ümman da beləcə, göy də beləcə.
Ruhumuz sərhədsiz olduğu üçün
Payımız gəlibdi göydən beləcə!..
Belə sonsuzluğun sonsuz qayğısı...
Bəlkə də taleyim düz eləməyir.
Mənə, yurdumuzun son sahilinə
Yetməyə bir ömür bəs eləməyir.
Dünyanın köksündən bir ümman axır,
Yayılır qolları, dəyişir adı.
Yolları Şərurda dayanan xalqın
Qəlbinin paytaxtı Kərbələdadı.
Dərbənd qəbiristanı özündən böyük,
Müdrik babamıza dayanacaqdır...
Bir gün Dədəm Qorqud mənə işimcə
Təzə ad verməyə oyanacaqdır!
"İrəvan çuxuru" alışır sazda,
Sinəmə sıxmağa "Göyçə gölüm" var.
Dağların başında Ələsgər kimi
Bizdən uzaq düşmüş bir küsülüm var.

Diqqət göstərilsə, Sabirin Kərküddən belə, DəmirqapıDərbənddən belə, Göyçədən belə, ó cümlədən, tarixi İrəvandan belə dolanan xəyalı xalqın tarixi yaddaş xəritəsini çəkir. Bu xəritədə biz xalqın bütün gücünü, varlığını hiss edirik, duyuruq. S.Rüstəmxanlı gələcək haqqında nikbin düşünür. Onun poetik düşüncəsindəki istəyini, arzusunu, bəlkə də gələcək haqqında ən doğruy qənaətini necə görməmək, duymamaq olar. O doğru deyir ki, bir gün dədəm Qorqud mənim adımı təzədən qoymaq üçün dünyamıza qayıdacaq.

S.Rüstəmxanlı çox yaxşı bilir ki, xalqın tarixi onun mənəvi sərvətlərindən ayrılmazdır. O, şeirdə "İrəvan çuxuru", "Göyçə gülü", saz havalarının adlarını təsadüfi xatırlatmır. Onun mənəvi dünyasında saz əsas tapınacaq vasitəsidir. Saz Azərbaycan türklərini birləşdirmək gücündə olan tarixi mədəniyyət abidəsidir.

Şeirin ikinci hissəsində Qarayazının, Dərbəndin adları çəkilir. Xalqın Borçalı taleyinə güzgü tutulur. Şəhriyar yada salınır. Şübhəsiz, bu duyğulanmaların hamısında biz S.Rüstəmxanlını millət övladı, vətən savaşçısı kimi görürük. Şeirin ikinci hissəsi də kifayət qədər təsirli və cəlbedicidir:

Gəzəm oba-oba Qarayazını,
Süleyman saz çala, ağlayam zar-zar.
Hərəsi yurdumun bir paytaxtıdı
Borçalı elində tutqun analar!
Hardan tapacaqsan sərhədlərini
Əmrahın sazından keçirsə əgər!
Dərbənddə Pərvanə adlanan qızın
Çağlayan gözündən keçirsə əgər!
Qitələr dolaşan didərginlərin
Yolundan, izindən keçirsə əgər!
O şəkər dillərin belini qıran
Şəhriyar sözündən keçirsə əgər!
Şumerdən adlayan on min il yaşlı
Ölümsüz bir dilin söz qatlarında
"Nənə" kəlməsindən keçirsə əgər!..
Arzu da beləcə sərhədsiz olur,
Ümman da beləcə, göy də beləcə.
Ruhumuz. sərhədsiz olduğu üçün
Payımız gəlibdi göydən beləcə!..

S.Rüstəmxanlı bu şeirin sonluğunu çox möhtəşəm obrazlarla bitirir. O, şumeri yada salır, türk dilinin on min il əvvəlki qaynaqlarını yaddaşa gətirir. Bir sözlə, Azərbaycan dilinin ölümsüzlüyünə inandığını bəyan edir. Şübhəsiz, dil də nə qədər yaşayırsa, millət də öz varlığını o qədər qoruyur. S.Rüstəmxanlının poetik düşüncələrində arzu sərhədsizliyi ilə ruhumuzun sərhədsizliyi qoşalaşır. Və bu sərhədsizliyin fonunda əbədiyaşarı tarixi dəyərlərimizi görürük.

S.Rüstəmxanlının "Vətəndaşlığın əlifbası" kitabında elə dəqiq tarixi faktlara söykənişlər var ki, bütün bunların hamısında biz xalqımızın tarixdən gələn yaşarı gücünü görürük. S.Rüstəmxanlı Azərbaycan türklərinin, ümumiyyətlə, türk dilinin tarixi ilə bağlı çox maraqlı mülahizələr irəli sürür. Onun göstərdiyi faktlar həm də xalqın tarixi taleyini güzgü kimi ehtiva edir. "Azərbaycan və türk sözləri" adlı maraqlı polemik əhvallı yazıda biz Sabirin vətən tarixi ilə bağlı çox hünərli bir savaşçı olduğunu da görürük. O, "Azərbaycan" sözünün tarixinə özünəxas bilgilərlə işıq tutaraq yazır: *"Sözlərin soykökünün öyrənilməsi tarix , bilgisinə yardım etmək baxımından dəyərlidir, lakin söz araşdırıcılığı ilə tarixi eyniləşdirmək, uydurma etimalogiyani tarixin yerinə keçirmək olmaz. Sözlər yalnız açardır. Tarix qapisinin açarları. Qapıların o üzündə nələr var? Tarixçilər və dilçilər ilk növbədə bu suala cavab verməlidirlər... Azərbaycan sözünü yalnız burularda min illərlə yaşamış və çoxu şərti olaraq Turani irq, yəni turanlılar adlandırılan xalqların dillərinin bir kəlməsi kimi açmaq olar. Beləliklə, vətənimizin adını Makedoniyalı İskəntərin təyin etdiyi bir hakimə bağlamaq mifi sıradan çıxır. Mən Azərbaycan kəlməsi ilə bağlı təhlilimi 1980-ci illərin ortalarında yazmışam və indi həmin fikirlərimi olduğu kimi bu kitaba köçürürəm: "Azərbaycan sözünün kökünü Atropatena ilə bağlamaq ağlıma batmır. Bir sıra islam tarixçilərinin, yunan, rum alimlərinin qədimdən bəri bir ənənə olaraq, şəhər, ölkə və xalq adlarını ya öz ölkələrinin sərkərdə və hökmdarlarının adları ilə, ya da Nuh və onun övladlarının adları ilə bağlamaq cəhdləri dünya tarixşünaslığına yaxşı bəllidir. Bu "ənənəni"n yanlışlığını bilmədən bir çox qədim yer adlarının mənasını açmaq, əsl həqiqəti ortaya çıxarmaq çətindir. Tarixçilər bunu nəzərə almadan, nədənsə, ilk dəfə Strabon tərəfindən deyilmiş fikirdən qopa bilmirlər. Bir-birinə əsaslanaraq Azərbaycan sözünü şəxs adı ilə, Kiçik Midiyanın hökmdarı Atropatla bağlayırlar. Bu sözü Azərbaz ibn Bürasefin adı ilə (Müqqəddəsi, İbn əl-Fəqih, Yaqut əl-Həməvi və b.), Azərbaz ibn İran ibn Əsvad ibn Sam ibn Nuh kimi mifik bir şəcərə ilə bağlayanlar da çoxdur. Bu sözü "qış yellərinin əsdiyi yer" kimi mənalandıranlar da olub. Mənim yurdumda doğrudan da tarixin çox soyuq yelləri əsib! "Azərbaycan"ın mənasını pəhləvicə azər - od, bayiqan - xəzinə sözlərində axtarıb, "od qorunan yer" kimi yozanlar da var. Həmdulla Qəzviniyə görə, Şapurun vaxtında Azərbad adlı bir kişi peyğəmbərlik iddiasına düşmüşdü. Təbrizdəki od evinin özülünü də o qoymuşdu və guya yurdumuz da onun şərəfinə belə adlanır. "Şərq və dünya tarixində tayı-bərabəri olmayan" bir əsər kimi qiymətləndirilən "Cəmi ət-Təvarix"in müəllifi Rəşidəddin XIV yüzildə, Məhəmməd Hüseyn ibn Xələfi Təbrizi isə XVIII yüzildə yanlış ənənələri qıraraq, Azərbaycan sözünün mənasını sözün özündə, öz ana dilimizdə - türkcədə axtarmışlar. Adını sonuncu çəkdiyimiz alim qeyd edirdi ki, azər qədim türk dilində uca, bayqan isə böyük, əsil-nəcabətli adamlar deməkdir".* Zənnimcə, bir qədər uzun görünən bu qeydləri yada salmaq yerinə düşür. Çünki bu qeydlərin arasında orijinal tədqiqatçı mülahizələri də var. Əlbəttə, mən o fikirdə deyiləm ki, "Azərbaycan" sözünün tarixi ilə bağlı mülahizələrə S.Rüstəmxanlı son qoya bilib. Çünki bu məsələ zaman keçdikcə, yeni tarixi faktlar ortaya gəldikcə yeni ideyalar, yeni fikirlər də çözülə bilər. Açığı, S.Rüstəmxanlının bu məqaləsi o qədər cəzbedici, o qədər maraqlıdır ki, hər parça mətnin üzərində ayrıca dayanmağı vacib hesab edirsən. Maraqlıdır ki, S.Rüstəmxanlı qədim türk mənşəli adların Avropadan belə yayılmasına da diqqəti yönəldir: "Gəl, Anar, Torkel, Atli Eynar, Elli, Ərp" və s. Sonra yenə türk mənşəli çoxlu adlar çəkir. Zənnimcə, bu adların ictimailəşməsi, hər bir yeni ailə quran gəncə çatdırılması da vacibdir. S.Rüstəmxanlı adlar çəkir və hamısının arxasına "ar-ər" ifadəsinə diqqəti yönəldir: "Subar, Suvar, Sabir (ir sonluğu "ar"ın təhrifidir), Avar, Acar, Macar, Xəzər, Qacar, Bulqar, Bumnar, Tatar" və s. S.Rüstəmxanlı "Azər" sözünü də bu qəbildən hesab edir. S.Rüstəmxanlı bu izahlarında bayat, bay sözlərini qədim türk dilindən gəlmə tanrı mənası daşıyan kimi şərh edir. Bir sözlə, S.Rüstəmxanlının qənaətinə görə Azərbaycan Azər xalqının yaşadığı yer deməkdir. Göründüyü kimi bu məlumatların hamısı maraqlıdır, dəyərlidir. S.Rüstəmxanlı milli soy kökümüzü araşdıran milli ruhlu alimlərimizin düşüncələrinə də istinad edir. Həsən Həsənovun, Firudin Ağasıoğlunun qənaətləri ilə onun nəticələri bir-birini tamamlayır.**

(Davamı 11-ci səhifədə)

RUHUMUZUN SƏRHƏDSİZ DUYĞULARI

(Əvvəli 10-cu səhifədə)

S.Rüstəmxanlının bu məqaləsinin sonluğu da maraqlı polemikalarla bitir. Nəhayət, o öz fikrini əsaslandırmaq üçün ulu öndərin qənaətlərini də yada salır. Zənnimcə, bu məqamı da ayrıca diqqətə çəkmək yerinə düşər: *"Sonra bu məsələ iki gün Akademiyada müzakirə olundu, orda mən çox sərt çıxış elədim. Ardınca Prezident aparatında geniş yığıncaq keçirildi. Heydər Əliyev öncədən şərt kəsdi. "Akademiyadakı müzakirədən xəbərim var, orda çıxış edənlərə burda söz verməyəcəyəm!" Amma türk dili ifadəsinə qarşı əsassız çıxışlar əndəzəni aşanda, hətta Yusif Səmədoğlu kimi yazıçımız, dostumuz "mən türkcəni başa düşmürəm" deyəndə mən əlimi qaldırdım. Maraqlıdır, H.Əliyev mənə xoş, səmimi münasibətini bir daha nümayiş etdirərək "yaxşı, Sabir istisnadır. Akademiyada danışanlardan tək ona söz verəcəyəm" - deyərək məni kürsüyə çağırdı. Mən öz aramızda irəli sürdüyüm fikirləri və akademiyada çıxışımda dediyim dəlilləri burda da xatırlatdım və sonda dedim: "Xalqın dilinin adı gec-tez bərpa olunacaq. Siz Cavidə bəraət qazandıran, onun nəşini Naxçıvana qaytaran adamsınız. Dilimiz də repressiyaya məruz qalıb, Stalin vaxtında, indi adı bərpa olunubsa arzu edirəm daha dəyişdirilməsin." O, təmkinini pozmadan sözümü kəsdi: "Sabir, sənə demişəm axı, mən ictimai rəyi öyrənirəm. Görürsən də, çıxış eləyənlərin yarısı türk sözünün əleyhinədir". Mən də öncəki görüşümüzdə dediyim fikri təkrar elədim: "Burda oturanlar Sizin bir sözünüzə bağlıdırlar. Bircə kəlmə "türk dili" tərəfdarı olduğunuzu desəniz, "Azərbaycan dili" sözünün bütün tərəfdarları yüz qat artıq dəlil-sübutla dilimizin adının türk dili olduğunu təsdiqləyəcəklər". Yerdən bir məhşur alim: "Sən bizi təhqir edirsən!" - dedi. Dedim: "Təhqirə layiq olanları təhqir edərlər. Sizin kimilərin əliylə bizim əlifbamız üç dəfə dəyişdirilib, dilimizin neçə min illik adı müzakirə mövzusuna çevrilib." Sonra rəylər 16:15 "Azərbaycan dili" tərəfdarlarının xeyrinə oldu və böyük bir səhvə yol verildi. O gün bizim ziyalılarımızın tərcümeyi halına qara xətlə yazılmalıdır. Çünki onlar özlərində cəsarət tapıb dilimizin əsl adını müdafiə etsəydilər 37-ci ilin səhvi təkrarlanmazdı. Dilin adı hər ölkənin adına uyğun dəyişdirilməz. Bu, bizi tariximizdən qoparmaqdır".* Doğrudur, S.Rüstəmxanlının dilimizi türk dili adlandırması ilə bağlı polemika bu gün də maraq doğurur. Amma hər halda ulu öndər zamanı əsas hakim kimi qəbul edir və Azərbaycan dili adının saxlanmasını daha münasib bilir. Burada mənim məqsədim odur ki, S.Rüstəmxanlının müstəqil fikirli bir ziyalı olduğunu, inandığı qənaətləri məqamında, yerində bildirməyi özünün borcu hesab etdiyini oxuculara çatdırır.

S.Rüstəmxanlı dünyanın harasındasa bir azərbaycanlının kiçik bir odasında qonaq olsa, həmin yeri özünün vətəni bilər. Həmin yeri böyük vətənin bir parçası hesab edər. "Azərbaycan coğrafiyası" adlı məqalə, zənnimcə, Sabirin vətən anlamının hansı bir coğrafiyanı ehtiva etdiyini diqqətə çəkir. Bu məqalədə Sabir bir vaxt böyük imperiyanın sərhədləri olan əraziləri yada salır. Və nəhayət, öz düşüncələrini "Vətən" adlı şeiri ilə yekunlaşdırır:

Bir əlçim buluddu,
Bir ömür umuddu,
Bir içim sudu.
Yandıqca odlanan ocaqdı,
Daddıqca dadlanan arzudu.
Bir dərə bahar leysanıdı,
21 Azərin qanıdı,
Cavad xanın qətl yeridi,
Sabirin "Fəxriyyə" şeiridi,
Dağları dumanda itən -
Vətən... Vətəni.
Hadinin şeir bazarıdı,
Füzulinin dağıdılmış məzarıdı,
Taleyin ələnən ələyidi.
Durna lələyidi,
Araz hörüyündən
kəməndə düşmüş Sevildi,
"Ənəlhəq" harayıdı.
Ələsgərin sazıdı.
Qədim əlyazmasıdı.
Dahilər boylanır sətirlərdən
Vətən... Vətən!
Şimşəklər çinartək sancılıb yerə,
Düşmənin gözünə dirsəkdi hər dağ.
Babalar atını sürüb gedibdi,
Qalalar boylana qalıbdır ancaq.
Oğlu - Şah İsmayıl Xətai adlı,
Ağ atlı oğlan var, atı qanadlı,
Bir də Suraxanı Atəşgahı var,
Bir də Misriqılınc, bir də Çənlibel,
Bir də
"Heydərbaba" yazılmış bir dil.
Torpağı ot deyil, kişi göyərdən
Vətən... Vətəni!
Durna lələyidi,
Araz hörüyündən
kəməndə düşmüş Sevildi,
"Ənəlhəq" harayıdı.
Ələsgərin sazıdı.
Qədim əlyazmasıdı.
Dahilər boylanır sətirlərdən
Vətən... Vətən!
Şimşəklər çinartək sancılıb yerə,
Düşmənin gözünə dirsəkdi hər dağ.
Babalar atını sürüb gedibdi,
Qalalar boylana qalıbdır ancaq.
Oğlu -Şah İsmayıl Xətai adlı,
Ağ atlı oğlan var, atı qanadlı,
Bir də Suraxanı Atəşgahı var,
Bir də Misriqılınc, bir də Çənlibel,
Bir də
"Heydərbaba" yazılmış bir dil.Durna lələyidi,
Araz hörüyündən
kəməndə düşmüş Sevildi,
"Ənəlhəq" harayıdı.
Ələsgərin sazıdı.
Qədim əlyazmasıdı.
Dahilər boylanır sətirlərdən
Vətən... Vətən!
Şimşəklər çinartək sancılıb yerə,
Düşmənin gözünə dirsəkdi hər dağ.
Babalar atını sürüb gedibdi,
Qalalar boylana qalıbdır ancaq.
Oğlu -Şah İsmayıl Xətai adlı,
Ağ atlı oğlan var, atı qanadlı,
Bir də Suraxanı Atəşgahı var,
Bir də Misriqılınc, bir də Çənlibel,
Bir də
"Heydərbaba" yazılmış bir dil.
Torpağı ot deyil, kişi göyərdən
Vətən... Vətəni!

Sabir Cənubi Azərbaycanda azrbaycanlılara qarşı aparılan siyasətin qəti əlehdarıdır. O yaxşı bilir ki, Cənubi Azərbaycan ərazisinin millətçi-şovinist qüvvələrin təsiri ilə ayrı-ayrı kiçik əyalətlərə bölünməsi məhz onların çirkin niyyətlərinə xidmət edir. Amma S.Rüstəmxanlıda elə bir sarsılmaz inam var ki, vətən dilində danışan, bu dildə "Heydərbabaya salam" kimi bir poema yaratmış Şəhriyar gücü nə vaxtsa özünü diktə edəcək. Xalq özünün təkcə tarixi dəyərlərinə yox, həm də coğrafiyasına sahib çıxacaq.

S.Rüstəmxanlı çox böyük sevgi ilə qeyd edir ki, ulularımız bir vaxt tarixi yazmasalar da, tarixi yaratmaqda heç də dünyanın digər xalqlarından geridə qalmırlar. S.Rüstəmxanlı vətən tarixinin coğrafiyasını öyrənən alimlərimizin necə zillətlərə məruz qaldığını, necə təqiblər gördüyünü də yada salır. Yazının sonluğunda S.Rüstəmxanlı böyük Çin səddini yada salır. Qeyd edir ki, Çin səddi bir vaxt türklərin hücumlarının qarşısını almaq üçün çəkilmişdi, amma indi Çinin içərisindədir.

S.Rüstəmxanlı bu istiqamətdə fikir və düşüncələrini davam etdirərək "1200 illik hücumun son sərkərdələri" adlı məqaləsində yenidən Babək obrazına qayıdır: *"Səid Nəfisi yazır ki, Babək farsca pis danışırdı, deməli puştun, talış, kürd, fars olmamışdı, onların dilləri fars dilinə çox yaxındır. Məncə, Cəfər Cabbarlının, M.S, Ordubadinin, Ənvər Məmmədxanlının, Ziya Bünyadovun tarix bilgisinə şübhə ilə yanaşmağımıza əsas yoxdur, "Od gəlini"ndə Cəfər Cabbarlı Afşinlə Babəkin qardaş olduğunu göstərir. Doğrudan da, Babəkin üstünə gələn xilafət ordularının çoxunun başında türk sərkədələri dayanırdı. Yəni qardaş idilər, bir ananın qarnından çıxmasalar da. Onun ətrafındakıların da, üz-üzə gəldiklərinin də çoxu türk idi, lakin yenə deyirəm, bunun mətləbə heç bir dəxli yoxdur. Onu Azərbaycandan qoparmaq olmaz. Babək qəhrəman idimi? Bəli qəhrəman idi! 20 il Xilafət kimi nəhəng imperatorluğun ən güclü sərkədələrini diz çökdürüb, ordularını darmadağın etmişdi. Azərbaycan əhalisi Babəki dəstələyirdimi? Bəli! İslam Ensiklopediyası (4-cü cild, səh. 376) ənənəvi qaralama üsulu ilə Babəkin Bəzz ətrafındakı köylərə saldırıb hərkəsi qılıncdan keçirdiyini yazır. Bu uydurmadan cəmi 6 cümlə sonra Ensiklopediya əsl həqiqətin üstünə gəlir. "Mutasim xəlifə olduğu zaman Cibal, Həmədan və İsfahan bölgələrindəki xalqın böyük bir qismi Xürrəmiyyəni mənimsəyərək üsyan etmişdi. Xalq onu qılıncdan keçirənin ətrafına necə yığışa bilərdi? Bütün bunlar göstərir ki, özünü hamıdan ağıllı sayıb, bütün indiyədək yazılanları inkar edərək tarixi qəhrəmanlarımızı, xalqın yaddaşında yaşayan insanları gözdən salmaq cəhdi əbəsdir. Böyüklərimiz gözdən düşmür, başqalarının fitvasıyla onlara dil uzadanlar özləri etibardan düşürlər. Şah İsmayıl Xətaiyə, folklor qəhrəmanı Koroğluya, Güney Azərbaycanın azadlıq mücahidlərinə, bəzi yazıçılarımıza hücumlar da beləcə əsassız və qərəzlidir... Babəklə bağlı olan bu qeydlərimi onun son arzusu ilə bitirmək istəyirəm: Ondan son arzun nədir? - deyə soruşanda "aylı bir gecədə Bəzz qalasını seyr etmək" - deyib. Bu bir cümlə məni onun qəhrəmanlığı qədər təsirləndirib. Bu cümlədə həm də bir şair ruhu var".* Doğru olaraq, Babəkin milli kimliyinə işıq tutan alimlərin, yazıçıların, görkəmli sənətkarların adları bu qeydlərdə diqqətə çəkilir. S.Rüstəmxanlı bu qeydləri ilə Babəkin türk kimliyinin üzərinə kölgə salanlara qarşı çıxır. Və əslində çox kəskin və aydın cavab verir. Burada bir məqama da toxunmaq istərdim. İndinin özündə də hətta Milli Məclisdə əyləşənlərdən bəziləri, yaxud, özünü tarixçi, yazıçı hesab edənlərdən kimlərsə Babəkin milli kimliyinə şübhə toxumu əkir. Mən təəssüf edirəm ki, hələ də Prezidentin müvafiq sərəncamı olmasına baxmayaraq, Bakı şəhərində özünün qanuni yerinə, ucalığına qalxmayıb.

"Adımız, soyadımız" adlı məqalədə S.Rüstəmxanlı bu gün də saktual olan, vacib olan məsələlərə toxunur. Milli kökənli adları xatırladır. Bu yerdə mənim yaddaşımda Cəfər Cabbarlının özünün əsərlərindəki adlar, obrazlar bütün parlaqlığı ilə oyanır.

Məni ən çox sevindirən, duyğulandıran məqamlardan biri də S.Rüstəmxanlının tarixi, milli adlara sevgi ilə yanaşmasıdır. O, çox böyük məmnunluqla Dədə Qorquddan ad nümunələri gətirir. Milli ad daşıyıcıları olan sənətkarlarmızın adlarını yada salır.

S.Rüstəmxanlı azadlıq mücahididir. Böyük Sovetlərin çöküşü zamanında S.Rüstəmxanlı bədii yaradıcılığında tərənnüm etdiyi azadlığın nə demək olduğunu artıq meydanlarda nitqləri ilə xalqa çatdırırdı. Onun "Azadlıq" adlı məqaləsi sərhədsiz ruhumuzn tərənnümü olmaqla bərabər yenə tarixi duyğulanmalara yön tutur.

S.Rüstəmxanlının ədəbi-publisistik məqalələrində esse-düşüncə mahiyyəti, tarixi dolanbalara işıq salmaq gücü olduğu kimi bir poetik qüdrət də var. Təsadüfi deyil ki, o, "Azadlıq" adlı məqaləsini "Mən deyən Azadlıq" adlı şeiri ilə bitirir:

Niyə nəğməmizin hər xalında qəm,
Niyə bayramlara güvənəmmirəm
Hələ də dərdlidir dumanlı dağlar,
Hələ də yurdumun bir gözü ağlar!
Hər dilin ucunda bir ah yaşayır.
Hər üzdə bir azca günah yaşayır,
Bu boyda sərvətə, bu boyda vara,
Dünyanı dolaşan çal-çağırlara
Sevinə bilmirsə millət ürəkdən,
Zaman göz yaşımı silməyib hələ!
Düşmən Qarabağda at oynadırsa -
Mən deyən azadlıq gəlməyib hələ!
Səngər əvəzinə dəyirmi masa,
Dilsizlər məclisdə söz ağasıa,
Qəzetə, kitaba sığmırsa yalan,
Eyni gözdədirsə qaçanla qalan,
Milli Qəhrəmanım çörək peşində,
Oğru "milliləşir" öz vərdişində.
Evsizin könlünü yıxanlar zəngin,
Erməni qarnından çıxanlar zəngin,
Xalqın gözlərində bir bəyaz pərdə,
Dost kimdir, düşmən kim? - bilməyib hələ.
Ötən tarixlərdən dərs almadıqsa -
Mən deyən azadlıq gəlməyib hələ...
Düzə quyu qazan əyrilik azad,
Yenə din pərdəli gerilik azad,
Ruhumda ocaqlar qalamaq azad,
Qaçqının malını talamaq azad!
Eldən danışanlar elini bilməz,
Dildən danışanlar dilini bilməz.
Pul ilə qul olan gözəllər azad,
Dövlətdən çalınan özəllər azad.

(Davamı var)